

# Ermənistan rəhbərliyi xalqın gözündən düşür

*Ermənistan tərəfi Qarabağ cəbhəsində təxribatlarını davam etdirir. Bir neçə gün öncə Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədində Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd döyüş məntəqələri Ermənistan Respublikasının Silahlı Qüvvələrinin bölmələri tərəfindən bir neçə istiqamətdən günün müxtəlif vaxtlarında iriçaplı silahlardan dəfələrlə intensiv atəşə tutulub. Məlumatda bildirilir ki, bütün hallarda bölmələrimizə qarşı atəşin açıldığı Ermənistan Silahlı Qüvvələrinin döyüş mövqeləri istiqamətində cavab atəşi açılıb.*

Səh.13

24 səhifə
Həftəlik qəzet

UNİKAL

№25 (1964) 4 may 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.org   unikal-1@mail.ru



# Elman Rüstəmovun səriştəsizliyi problemləri dərinləşdirir

## Baş bankirin xaosa sürüklədiyi bank sektoru xilas olmağa başlayır...

*Bu həftə xəbər portallarının iqtisadiyyat lentlərində iki xəbər xüsusilə diqqətçəkici idi . Bunlardan birində deyilirdi ki, Azərbaycanın Mərkəzi Bankı (AMB) 2018-ci ili 60 milyon 316 min manat zərərlə başa vurub. Halbuki, qurum 2017-ci ildən 3 milyard 513 milyon manat mənfəətlə çıxmışdı. Bunun səbəbi isə Neft Fondundan 3 milyard 949 milyon manat transferlər olmuşdu.* AMB-nin cəmi aktivləri bu il yanvarın 1-nə 22 milyard 68 milyon 979 min manat təşkil edib ki, bu da ötən ilin yanvarın 1-i ilə müqayisədə 2,5% azdır. Digər xəbərdə isə bildirilirdi ki, "Bank Respublika" 2019-cu ilin 1-ci rübünə dair maliyyə hesabatlarını açıqlayıb. Məlum olub ki, adıçəkilən Bank birinci rübdə bütün istiqamətlər üzrə dinamik inkişaf etməyə davam edib və bütün maliyyə göstəriciləri üzrə artım nümayiş etdirib, 31 mart 2019-cu il tarixinə onun aktivləri 1 milyard manatı keçib, bu da ötən ilin birinci rübünün göstəricisindən 47% çoxdur.

Səh.13

Səh.6



# Sahibkarlara süni əngəl yaradan məmurlar hədəfdə

## Ziya Məmmədovun qardaşının əmlakları da satışa çıxarıldı



*Sabiq nəqliyyat naziri Ziya Məmmədovun mərhum qardaşı Nəriman Məmmədova məxsus əmlakların bir qismi satışa çıxarılıb. Bu barədə "Unikal" qəzetinə məlumatlı mənbələrdən xəbər daxil olub. Xəbərdə deyilir ki, N.Məmmədova məxsus Bakı şəhəri Binəqədi rayonu ərazisində, Biləcəri qəsəbəsindəki hərbi çağırışçıların Biləcəri toplanış məntəqəsi ilə üzbəüz yerləşən mülkü satılır.*

Səh.2

## "İdarəetmə strukturlarında dəyişikliklər olmalıdır"




*Son dövrlər ölkə başçısının yürütdüyü siyasət nəticəsində təhsil sahəsində müəyyən islahatlar aparılsa da, hələ də problemlər var. İstər məktəbəqədər, istə orta, istərsə də ali təhsil müəssisələrində zaman-zaman neqativliklər ortaya çıxır. Tanınmış təhsil eksperti mövcud vəziyyətlə bağlı "Unikal" qəzetinə müsahibəsində maraqlı məqamlara toxunub.*

Səh.4

## Təhsil müəssisələrində din dərsləri tədris olunsun, yoxsa...



*Bu günlərdə DQİDK-nin sədri Mübariz Qurbanlı çıxışında bildirdi ki, təhsil mərkəzlərində din dərsləri tədris olunacaq. Sosial şəbəkələrdə ictimailəşən sözügedən mövzu, sanki, komitə sədrinin öz fikirlərinə yenidən düzəliş etməsinə səbəb oldu. Belə ki, komitə sədri bildirdi ki, din mövzulu dərslər orta məktəblərdə deyil, ali məktəblərdə tədris olunacaq.*

Səh.10